

*Əli Rza XƏLƏFLİ*

## DUYĞULAR LƏLƏK SALAR

Özün tapa bilərsən bəxt adlı şirin payı,
Zəhmətin külüng çalsa, sal daşın sərt üzünə.
Həsrətlər bitən yerdə duyğular dilə gələr,
Könüllər gül bitirər ovqatın pərt üzünə.

Durnalar qayıdanda salama lələk salar,
Saralan yarpaqları budaqdan külək salar.
Can qürbətdə can versə, niyyəti dilək salar
Ruhu uçub gətirər, son anda yurd üzünə.

Qönçələnən güllərdi sənətkarın tər sözü,
Gözlərinlə oxşa, öp, şeh üstündə dər sözü.
Misraları qan süzər, od ələyər hər sözü,
Şair yazsa sözünü qəzəbin dərd üzünə.

Həsrətində ütülüb, arzusunda bitməyən,
Ocaq olar içində dodaqlarda ötməyən;
Yeri əli tutmayan, göyə ünü yetməyən,
Ümidini götürüb üz tutar mərd üzünə.

Savaş açdı ruhumuz, çıxdı can qorxusundan,
Yatağanı dil çaldı türkün qan qoxusundan.
Qalxdı qaraçuxamız illərin yuxusundan;
Axır ki, taleyimiz uladı qurd üzünə.

Bu dünyanın üzündə xeyirlər var, şərlər var.
Qaranlığı, işığı dolandıran pərlər var.
Talelər oyununda qoşalanmış zərlər var,
Hərənin öz məramı atılar nərd üzünə.

Zirvədə məkan tutub Xələfli heyrət gəzər,
Cılızlar yetə bilməz, qalxmağa qeyrət gəzər;
Qarğa-quzğun cəm olub didməyə fürsət gəzər,
Qorxusu yox qartalın, gəlsələr fərd üzünə.

***07.09.2021***

## ŞUŞADA GÖRDÜYÜM ADAM

Şuşada gördüyüm adam...
işığı çox gur adam...
Şuşada gördüyüm adamı
kim tapar mənim üçün

Şuşada gördüyüm adam...
işığı çox gur adam...
Çatarmı səsim, sədam
Çağırsam, eşidərsənmi
Özü, sözü...
başdan ayağa nur adam...

Şuşada gördüyüm adam...
Deyirdim gözümün nuru azalıb
Yəqin ona görə dostlarımı
yarı qaranlıq görürəm...
Yəqin dünya əzəlki kimi
işıqlı deyil, deyə düşünürdüm
Yəqin dünyanın işığı sozalıb
mən də buna görə
dünyanı toranlıq görürəm...

Şuşada gördüyüm adam
səni görəndə bildim
Dünyanın işığı sozalmayıb
Səni görəndə bildim
gözümün də hələ fəri
qədərincə güclüdür
Şuşada gördüyüm adam
səni görəndə bildim
Hələ işığı gur olanlar var...
Şuşa da çox işıqlı idi həmin gün...

***Şuşa,***
***08.08.2025***

## AHIM GÖYƏ QALXA

Hardasan, bir səs ver, eşidim, gülüm.
Xoş gəlir könlümə kəlam da səndən.
Demirəm dünyanı mənə bəxş elə,
Bəsimdir bir isti salam da səndən.

Sənsən könül evim, yolum, pənahım,
Səndən qeyri yoxdur ümidim, ahım.
Bilirəm sevgimdir mənim günahım,
Dönmərəm saralıb solam da səndən.

Od ala qəlbindən, yana nəfəsim,
Qırıla qandalım, sına qəfəsim.
Səninlə bir ola eşqim, həvəsim,
Payımı dilindən alam da səndən.

Kəbəmsən, bəxtimə pir sən olasan,
Kimsəyə açılmaz sirr sən olasan.
Həyatım, istəyim bir sən olasan,
Ürəyimcə kama dolam da səndən.

Məndən kənar gəzib, uzaq qalsan da,
Canımı eşqinlə girov alsan da;
Bircə məramım var, harda olsan da,
Qadanı canıma alam da səndən.

Min dəfə şumlana, sinəm əkilməz,
Bir dağam başımdan duman çəkilməz;
Dağılmaz hasarım, bürcüm sökülməz,
Tikilsə qəlbimdə qalam da səndən.

Ahım göyə qalxa, baxmazsan yenə,
Yansam təşnəliyə axmazsan yenə;
Bir an xəyalımdan çıxmazsan yenə,
Min il ayrılıqda qalam da səndən.

Həsrətin ha yana bişəsi deyil,
Teyləyə yaramı, deşəsi deyil;
Qəlbimə inciklik düşəsi deyil,
Gəlsə də bəxtimə bəlam da səndən.

Yer qalxsa, göy ensə, aləm çöksə də,
Bezmərəm gözlərim qan-yaş töksə də;
Xələfli ahımı sözə çəksə də.
Bitməz bu məlalım, nalam da səndən.

*10.09.2025*

## YADDAŞIN QƏM ÜZÜ

Qəfil gördüm səni dilim tutuldu,
Bu qəza üstümə gəldi haradan.
Yaramın qaysağı himə bənd imiş,
Qopdu qəlpə-qəlpə köhnə yaradan.

Yaddaşın qəm üzü buluddan çıxır,
Açır yaxasını xatirə gülü:
Mənim günah payım göylərdən baxır.
Qorlanan ocağın sovrulur külü.

Sevgisi aşiqə günah sayılmaz,
Sevən bilməz axı yer nə, göy nədi,
Sevgisiz bir qəlbin bəxti ayılmaz,
Hardadır validol, sinəm göynədi.
Ey könül, yolunun üstündə gülən
Acı qismətindən nə küs, nə inci,
Bu görüş həsrətdən xəyala gələn
Bir nənə toyudur , baba sevinci...

...Mən kimə deyim ki, aşiq deyiləm,
Odu sinəsində sönmüş aşiqəm.
Min dəfə söyüləm, min yol döyüləm
Üzü haqqa sarı dönmüş aşiqəm.

*05.09.2025*

## QURBAN OLUM

*Nə olar mənə bir şeir yaz, xanəndələr oxusun*
**Bir gözəlin xahişi**

Bir yol göstər, qonaq olum ellərinə, qurban olum
Şirin şirin sözlərinə, dillərinə qurban olum

Sinə meydan, zülf pərişan - Vaqif səni belə öydü,
Mən pərişan saçlarının tellərinə qurban olum.

Qurban olum deyənləri qan görəndə dönən gördüm
Al qanımda xınalanan əllərinə qurban olum.

Süsən sünbül arasında öpüm səni qönçə qönçə,
Nə bağ bilsin, nə də bağban, güllərinə qurban olum...

Səndən ayrı həsrət məni oda tutar, közə tutar,
Hər bir anım ilə dönər, illərinə qurban olum...

Qibləm bilər könlüm səni, baş qoyaram sinən üstə,
Qucağına çağır məni, qollarına qurban olum...

Məcnun elə Xələflini, dağı, düzü göstər ona,
Səhralansın eşqin ilə, çöllərinə qurban olum...

*Cəbrayıl şəhəri,*
*25.07.2025*

## YANMIŞ HESABATDAN NOTLAR

*(xatirə-elegiya)*

Əzizim, qəlbimdə qəmlərə gülən,
Yaddaşı yoluma sərib də gəldim.
Əlli il mənimlə birgə yol gələn,
Solğun çiçəkləri dərib də gəldim.

Səni necə gördüm,... necə yazım mən,
Dolmuş gözlərindən gördüklərimi.
Bəxtin səhrasında yaşıl bir çəmən,
Sevginlə çağırıb hər səhərimi.

Ekrandan görürdüm...arada sükut,
Dolmuşdu gözlərin qəm havasında.
Sinəmdə göynəyən yarada sükut,
İnləyir , çırpınır öz yuvasında.

Boyaqçı taleyin əlindən keçən,
Saçların sarısı qəmli göründü.
Bəxtin qəm bulağı.. gözüm su içən,
Gözlərin dumana çənə büründü.

Hələ də qəlbimdə sevgi toxuyan
Odlu gülüşlərin təbəssüm olub.
Br zaman eşq ilə nəğmə oxuyan,
Xatirə bülbülün gülləri solub.

Ömür qatarını çəksə də illər,
Yaddaşım bir gün də səndən dönmədi.
Üstümdən ötsə də tufanlar , yellər,
Sevgimin ocağı yenə sönmədi.

Şirin xatirəyə dönən xəyallar,
Necə qaranlıqda işığım oldu.
Yanmış hesabatın nə mənası var,
Hər ömür beləcə ötəri yoldu.

***11.09. 2025***